AZƏRBAYCAN RESPUBLİKASI
TƏHSİL NAZİRLİYİ

**Azərbaycan Respublikası Təhsil Nazirliyi**
**Azərbaycan Dövlət İqtisad Universiteti (UNEC)**
**Fakültə: İqtisadiyyat və idarəetmə**

***Təsdiq edirəm:***
***«İctimai idarəetmə və sosial innovasiyalar»***
kafedrasının müdiri: **i.f.d., dos. E.Q.Məmmədov**

İmza:

**Protokol Tarix:**

# “UŞAQ VƏ YENİYETMƏLƏRLƏ SOSİAL İŞ”

**FƏNNİ ÜZRƏ**

## İŞÇİ TƏDRİS PROQRAMI

**FƏNN HAQQINDA MƏLUMAT**

| | |
|---|---|
| **Fənnin кodu:** | **00911** |
| **Fənnin növü:** | seçmə |
| **Tədris ili:** | *2025/2026* |
| **Fənnin tədris semestri:** | payız |
| **Fənnin tədris forması:** | əyani |
| **Tədris dili:** | Azərbaycan |
| **Fakültə:** | İqtisadiyyat |
| **Qrup:** | **-** |
| **Tədris yükü:** | 30 /30 |
| **Kredit sayı:** | **6** |
| **Kafedra:** | ***”İctimai idarəetmə və sosial innovasiyalar “*** |

**II. Müəllim haqqında məlumat**

**Fənni tədris edən müəllim: baş müəllim Sultanova N**

**E-mail ünvanı:Naile.sultanova.73@mail.ru**
**İş telefonu: 012-564-05-37**

**Tələbələr üçün qəbul vaxtları: 1-ci gün saat 17:00 dən 18:00-ə kimi**

## FƏNNİN TƏSVİRİ

Bir konsepsiya olaraq uşaq və yeniyetmələrlə sosial iş fənni; ailə quruluşu, sağlamlıq və qidalanma şəraiti, coğrafi xüsusiyyətləri, iqlimi, mədəniyyəti, cəmiyyəti və yeniyetmənin düşüncə-hiss-davranış xüsusiyyətlərini ifadə edir. Sosial işçi yeniyetmələrlə işləyərkən "psixososial diaqnostika və müalicə əvəzinə istifadə edilə bilməz, lakin tibbi müalicəni tamamlaya bilər, dəstəkləyə bilər. Sosial iş psixo-sosial formalaşdırılması ilə yeniyetmələrə və ailələrə peşəkar müdaxiləsi rifahın keyfiyyəti və saxlanması baxımından çox əhəmiyyətlidir. "Uşaq və yeniyetmələrlə sosial iş" fənninin mövzuları uşaq və yeniyetmələrin inkişaf xüsusiyyətlərini, yaşadıqları problemləri və onların səbəblərini, həlli yollarını ortaya qoyacaq səviyyədə hazırlanmış bir fənndir.

"Uşaq və yeniyetmələrlə sosial iş" fənninin tədrisi sosial proqramın mahiyyəti və əsas istiqamətləri, strukturu,sosial proqramlara dövlət dəstəyi mexanizmlərinin əsas istiqamətlərinin öyrənilməsini əhatə edir.Sosial işçilər uşaq və yeniyetmələrin hüquqlarının müdafiəsinə yönəlmiş qanunverici aktların və dövlət proqramlarının hazırlanmasında yaxından iştirak edirlər.

## FƏNNİN MƏQSƏDİ VƏ VƏZİFƏLƏRİ

Dünyada bəşər tarixinə nəzər saldıqda, sosial gələcəyimizdən asılı olduğumuz uşaqlarımız və gənc nəsillərimizlə bağlı araşdırmalar çox məhduddur. Bu fənnin öyrənilməsinin məqsədi bəşər tarixi boyu və bu gün uşaq anlayışının qavranılmasını, onun hansı hüquqlara malik olduğunu və uşaqların bir fərd kimi qəbul edilməsi prosesini üzə çıxarmaqdır. Sosial işin diqqət mərkəzində "fərd öz mühitində" diqqət mərkəzindədir. Bu araşdırmanın məqsədi yeniyetməni mikro və mezzo nöqteyi-nəzərdən qiymətləndirməkdə sosial işçinin rolunu aşkar etməkdir.

Fənnin mənimsənilməsində məqsəd milli siyasət və strategiyaların müəyyənləşdirilməsi, ailə quruluşunu və dəyərlərini qorumaq və gücləndirmək və ailənin sosial rifahını artırmaq üçün lazımi işləri həyata keçirmək, bunların monitorinqini aparmaq və qiymətləndirmək tətbiqetmə ailə quruluşunu və dəyərlərini təhdid edən problemləri və bu problemləri yaradan amilləri müəyyənləşdirmək, bir çox digər sahələrdə olan problemlərə qarşı sosial həssaslığı artıran fəaliyyət və layihələr həyata keçirmək, həll yolları inkişaf etdirmək, bu

mövzularda təlim proqramları hazırlamaq və həyata keçirmək haqqında ətraflı məlumatları tələbələrə çatdırmaqdır.

**FƏNNİN TƏDRİS METODOLOGİYASI**

Fənnin tədrisi zamanı tələbələr "Uşaq və yeniyetmələrlə sosial iş" haqqında nəzəri biliklər və praktiki vərdişlər qaznacaqlar. Tədris prosesi əsasən interaktiv şəkildə həyata keçiriləçəkdir.

Mühazirələr nəzəri olaraq tədris ediləcək və tələbələrin fəal iştirakı təmin ediləcəkdir. Ayrıca tələbəyə verilən tapşırıqlar auditoriya mühitində tələbələr tərəfindən təqdim ediləcək və müzakirə ediləcəkdir.

Bu fənnin tədrisi prosesində mühazirələrin mənimsənilməsi, interaktiv müzakirələrin aparılması, komanda şəklində layihələrin icrası, kiçik qruplarda iş, işgüzar oyunlar, video çarx vasitəsilə verilmiş mühazirə mətnlərinin dada tez mənimsənilməsi və test tapşırıqların yerinə yetirilməsi kimi geniş çeşiddə tədris və təlim üsullarından istifadə edilir. Fənnin tədrsi zamanı yerli və beynəlxalq təşkilatlardan mütəxəssislərin cəlb edilməsi, təşkilat və icma nümayəndələri ilə görüşlərin təşkili də daxildir

## Fənnin təlim nəticələri

Sosial inkişafın perspektivi, sosial proqnozlar və həyat səviyyəsinin yüksəldilməsi ölkədə iqtisadi inkişafla yanaşı, sosial inkişafın arasında dayanıqlı siyasətin təşkili formalarını özündə birləşdirir. Bu fənn tələbələri uşaq və yeniyetmələrlə aparılan sosial işin əsasları, bu sahədə istifadə olunan yanaşmalar və mövcud etik prinsiplərin rolu və yeri ilə tanış edir. Kursu başa vuran tələbələr insanlara həyatlarındakı çətinliklərin öhtəsindən gəlməyə kömək edən xidmət modellərin tətbiq bacarıqlarını əldə edəcəklər.

Kursun tədrisi başa çatandan və bütün mövzular mənimsənildikdən sonra tələbələr:

**BİLMƏLİDİRLƏR:**

Bu fənn şəxsiyyətin inkişaf problemlərini, ayrı-ayrı yaş dövrlərində onun xüsusiyyətlərini, psixi inkişafın dinamikasını, ümumi qanunauyğunluqlarını öyrənməklə yanaşı şəxsiyyətin yaş aspektində inkişafının hərəkətverici qüvvələri, mexanizm, şərait və amillərinin, təlim-tərbiyə prosesində psixi inkişafın yaş xüsusiyyətlərini nəzərə almağın səmərəli yollarını və s. əhatə edir. Bununla yanaşı, tələbələr xüsusi qayğıya ehtiyacı olan uşaqlar və yeniyetmələr, əlillər, risk qrupuna aid olan uşaqların qarşılaşdığı problemlər və bu problemlərin həlli yolları ilə tanış olurlar. Nəticədə tələbələr Azərbaycanda və dünyada sosial rifah və dəstək proqramları və xidmətlər haqqında, bu sahədə sosial işçinin vəzifələrini, bilik və təcrübəni öyrənmiş olacaqlar.

**BACARMALIDIRLAR:**

Tələbə sosial dəyərləri qiymətləndirməyi, ona təsir edən amilləri ölçməyi,proqnozlaşdırmaq yollarını və sahələrini bilməlidirlər. Kursu başa çatdıran tələbə bu ixtisası öyrənən bir mütəxəssis kimi proqnozlar verməyi bacarmalı və hər hansı vəziyyətdə hadisələri düzgün, ədalətli qiymətləndirməyi bacarmalıdır. Kursu bitirən tələbələr öyrənmənin nəticəsi olaraq sosial iş peşəsinin və elminin tarixi inkişafı və sosial işin fundamental əsaslarını təşkil edən sosial ədalət, etik prinsiplər və dəyərlər haqqında məlumat əldə edəcəklər. Tələbələr bu fənnin tədrisi ilə böyük və kiçik qruplarda şəxsiyyətlər arası münasibətlər, yaranan konfliktlər, onların yaranma səbəbləri və həlli yolları haqqında məlumat əldə edəcək, sosial qruplarda liderlik bacarıqları sayəsində praktik təcrübəyə yiyələnəcəklər.

**KORREKVİZİTLƏR:**

Fənnin tədrisi üçün öncədən tədrisi zəruri olan fənn – "Sosial işə giriş" , "Sosial işin nəzəriyyəsi və təcrübəsi" , "Sosial proqramlar və xidmətlər" sahələrin iqtisadiyyatı və idarə edilməsi" fənni, Sosial işə giriş"fənni,"Sosial işin nəzəriyyəsi və təcrübəsi" və "Sosial işdə idarəetmə"fənləridir.

## FƏNNİN MÜHAZİRƏ MÖVZULARI VƏ HƏR MÖVZU ÜZRƏ İSTİFADƏ OLUNAN ƏDƏBİYYAT SİYAHISI

Fənn 15 mühazirə mövzusundan ibarətdir. 15 mövzunun hər birinə 4saat (2 saat mühazirə və 2 saat seminar-məşğələ olmaqla)

.

| | Mövzular | Mövzunun əsas məzmunu | Ədəbiyyat |
|---|---|---|---|
| **1.** | "Uşaq və Uşaqlıq" anlayışının mahiyyəti və tarixi prosesdə qiymətləndirilməsi | 1."Uşaq və Uşaqlıq" anlayışlarının mahiyyəti. 2. "Uşaq və yeniyetmələrlə sosial iş" fənninin öyrənilməsinin məqsədi və vəzfələri. 3.Orta əsr Avropasında uşaq sahibi olmağın bəzi üstünlükləri və mənfi cəhətləri | 1.Köksal Akyol, A. ve Bilbay, A. (2017). Tarihsel Süreçte ve Farklı Kültürlerde Çocuk. A. Köksal Akyol (Ed.). Erken Çocukluk Döneminde Gelişim I. s.5-24, Ankara: Anı Yayıncılık.<br>2.Onur, B. (2005a). Çocukluğun dünü ve bugünü. Kebikeç İnsan Bilimleri İçin Kaynak Araştırmaları Dergisi, (19): 99-112.<br>3.Elkind, D. (1999). Çocuk ve toplum, (Çev. D. Öngen), Ankara: A. Ü. Çokaum Yay., No:3<br>4.Kartal, H. (2008). Geçmişten günümüze |

| | | | |
|---|---|---|---|
| | | | erken çocukluk eğitimi uygulamaları. Bursa: Ezgi Kitabevi. |
| **2.** | Uşaq dəyərlərinə müxtəlif yanaşmalar | 1.Uşağın dəyərinin qiymətləndirilməsi<br>2.Sosial-İqtisadi İnkişaf, Dəyərlər Sistemi, Uşağa yatırılan İnvestisiyalar və Uşaqdan Gözləntilər<br>3.Ailə anlayışına nəzəri baxış. Ailə dəyişikliyi nəzəriyyəsi | 1, Köksal Akyol, A. ve Bilbay, A. (2017). Tarihsel Süreçte ve Farklı Kültürlerde Çocuk. A. Köksal Akyol (Ed.). Erken Çocukluk Döneminde Gelişim I. s.5-24, Ankara: Anı Yayıncılık.<br>2.Onur, B. (2005a). Çocukluğun dünü ve bugünü. Kebikeç İnsan Bilimleri İçin Kaynak Araştırmaları Dergisi, (19): 99-112.<br>3.Elkind, D. (1999). Çocuk ve toplum, (Çev. D. Öngen), Ankara: A. Ü. Çokaum Yay., No:3 |
| **3.** | Uşağın şəxsiyyət kimi formalaşmasına ətraf mühitin təsiri**.** | 01.Şəxsiyyətin inkişafi və formalaşmasında mühitin və tərbiyənin roluna müxtəlif baxışlar.<br>02. Şəxsiyyətin inkişafi və tərbiyəsində “Qoşa amil” nəzəriyyəsi və müxtəlif fəaliyyət növlərinin rolu.<br>03. Uşaq şəxsiyyətinin inkişafında əməyin rolu. | 01.Kartal, H. (2008). Geçmişten günümüze erken çocukluk eğitimi uygulamaları. Bursa: Ezgi Kitabevi.<br>02.Postman, N. (1995). Çocukluğun yok oluşu, (Çev. K. İnal). Ankara: İmge Kitabevi. |
| **4.** | Uşaq rifah sistemi | 1.Uşaq qoruma sistemi və uşaqların qorunma səbəbləri2.Erikson'un uşaqlıq psixo-sosial inkişaf mərhələləri 3.İstismar növləri 4.Uşaq hüquqları və ximətlər | 01.Aral, Neriman, Fiziksel İstismar ve Çocuk. Tekışık Veb Ofset Tesisleri, Ankara, 1997.<br>02. Cılga, İbrahim , Türkiye’de Çocuk Hakları Çalışmaları, Cumhuriyet ve Çocuk. 2. Ulusal Çocuk Kültürü Kongresi, Ankara Üniversitesi Basımevi. Ankara, 506–516, 1999.<br>03.Çifci, G.A. (2009). Türkiye’de ve dünyada korunmaya ihtiyacı olan çocuklara yönelik hizmetlerin tarihsel gelişimi. T.C. Başbakanlık Aile ve Sosyal Araştırmalar Genel Müdürlüğü Aile ve Toplum Eğitim ve Kültür Araştırma Dergisi, Yıl : 11, Cilt: 5, Sayı: 19 Ekim - Kasım - Aralık 2009. |

| | | | |
|---|---|---|---|
| **5.** | Uşaq psixologiyası | 1. Uşaq psixologiyasının vəzifələri<br>2. İlk uşaqlıq dövründə idrak proseslərinin inkişafı<br>3. Məktəblinin psixoloji xüsusiyyətləri | 01.Kartal, H. (2008). Geçmişten günümüze erken çocukluk eğitimi uygulamaları. Bursa: Ezgi Kitabevi.<br>02.Postman, N. (1995). Çocukluğun yok oluşu, (Çev. K. İnal). Ankara: İmge Kitabevi |
| **6.** | Fiziki imkanları məhdud olan uşaqlarla sosial iş | 1.Fiziki imkanları məhdud olan uşaqların cəmiyyətə inteqrasiya olunması.2.İnklüziv təhsilə cəlb olunan məktəbəqədər yaşlı uşaqlarla aparılan işlərin məzmunu 3. İnklüziv təhsilə cəlb olunan uşaqlarla işin aparılması4. Sosial-psixoloji dəstəyin vəzifə və məqsədləri | 1. “Əlilliyi olan şəxslərin hüquqları haqqında “ Azərbaycan Respublikasının 2018-ci il 31 may tarixli, 1153 – VQ nömrəli Qanunu<br>2. “Sağlamlıq imkanları məhdud şəxslərin təhsili (xüsusi təhsil) Haqqında” Azərbaycan Respublikasının 5 iyun 2001 – ci il tarixli, 136 – IIQ nömrəli Qanunu<br>3. “Təhsil haqqında” Azərbaycan Respublikasının 2009 – cu il 19 iyun tarixli, 833 – IIIQ nömrəli Qanunu<br>4. “Uşaq hüquqları haqqında” Azərbaycan Respublikasının 19 may 1998 – ci il tarixli, 499 – IQ nömrəli Qanunu |
| **7.** | Risk altında olan uşaqlarla sosial iş | 1.Çətin həyat şəraitində olan uşaqların xüsusiyyətləri<br>2. Risk altında olan uşaqların problemləri<br>2. Risk qrupuna daxil olan uşaqlarla işin təşkili | 1. Çətin həyat vəziyyətindəki uşaqlar: Problemlərin həllinə yeni yanaşmalar - Çətin həyat vəziyyətində olan uşaqlara dəstək fondu - M., 2010<br>2.Schmidt-Shklovskaya A. Piyanist bacarıqlarının təhsili haqqında. L. Musiqi, 1985 İnternet mənbəyi: compresium.ru<br>3.Osuxova N.G. Çətin və ekstremal vəziyyətlərdə psixoloji yardım. Akademiya, 2012 Titarenko V.Ya. Ailə və şəxsiyyətin formalaşması.-M., Düşüncə, 1987 |

| | | | |
|---|---|---|---|
| 8. | Uşaq şəxsiyyətinin formalaşmasında ailədaxili münasibətlərin rolu | 1. Ailədə uşaqların sosia inkişafına təsir edən amillər<br>2. Ailə münasibətlərinin pozulmasının uşaq psixikasına təsiri<br>3. Ailə münaqişəlrinin səbəbləri | 01. Fine, M.A., Moreland, J.R., & Schwebel, A.I. (1983). Long-term effects of divorce on parentchild relationships. Developmental Psychology, 19, 703–713.<br>02.Kandır A. ve Alpan, Y. (2008). Okul öncesi dönemde sosyal-duygusal gelişime anne-baba davranışlarının etkisi. Aile ve Toplum, 10(4), 33-38. |
| **9.** | Ölüm hadisəsinin uşaq psixologiyasına təsiri | 1. Kiçik uşaqların itkiyə verdikləri reaksiyalar<br>2. Narahatlıq və Qorxu<br>3. Yuxu pozğunluqları<br>4 . Özünə qapanma və özünü təcrid etmə | 1.Aral, Neriman, Fiziksel İstismar ve Çocuk. Tekışık Veb Ofset Tesisleri, Ankara, 1997.<br>2.Cılga, İbrahim , Türkiye'de Çocuk Hakları Çalışmaları, Cumhuriyet ve Çocuk. 2. Ulusal Çocuk Kültürü Kongresi, Ankara Üniversitesi Basımevi. Ankara, 506–516, 1999.<br>3.Çocuk Koruma Kanunu (Kanun Kabul Tarihi: 03.07.2005, Kanun Numarası |
| **10.** | Azərbaycanda uşaq hüquqlarının müdafiəsi siyasəti | 1.Uşaqların hüquqlarının müdafiəsi<br>2. Uşaq zorakılığı 3. Azərbaycanda ana və uşaqların sosial müdafiəsi; və sistemin imkanları və əhatə dairəsi 4. Uşaqların sosial müdafiəsi – hüquqi təminatlar 5. Dövlət Uşaq Siyasəti | 1.https://www.unicef.org/azerbaijan/az/biz-nə-ilə-məşğuluq/uşaqların-müdafiəsi<br>2.24 noyabr 2020-ci il tarixli **460** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı **("Xalq" qəzeti, 28 noyabr 2020-ci il, № 249, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2020-ci il, № 11, maddə 1403**) |
| **11.** | Uşaq və yeniyetmələrdə davranış pozuntuları | 1.Uşaqlıq dövrü davranış problemləri<br>2.Qısqanclıq.3.Barmaqəmmə,dırnaqyemə<br>4.Valideynin öhdəsinə düşən vəzifələr.5 Yalan danışmaq.Yalan danışmanın səbəbləri. | 1.A. İbrahimov, H.Xəlilov. Sağlam övlad, düzgün tərbiyə, təmiz nitq.Bakı, "Misri" nəşriyyatı, 2004<br>2.Sarya Lotfi; Mehmet Başcıllar Travma Sonrası Stres Bözukluğu və Sosyal Hizmet<br>12.10.2017<br>S 1-12 |

| | | | |
|---|---|---|---|
| 12 | Uşaq və yeniyetmələrin psixi inkişaf dövrləri (Diqqət Çatışmazlığı və Hiperaktivlik) | 1.Diqqət çatışmazlığı, hiperaktivlik və onun xüsusiyyətləri.2.Yaranma səbəbləri.3.Diqqət defisiti və hiperaktivlik pozğunluğunun əlamətləri.4.Diqqət defisiti və epilepsiya. 5.Necə yaxınlaşmalı və nə etməli. | 1.S. Seyidov, M. Həmzəyəv, "Psixologiya", Nurlan nəş. Bakı-2007<br>2.M.Ə. Həmzəyev, "Yaş və Pedaqoji Psixologiyasının Əsasları", Bakı-2000<br>3.Editor: Birol Vural, "Nitelikli Sınıf ve Stressiz Eğitim Ortamı", Hayat nəş. İstanbul – 2004<br>4.S. Xəlilov, "Təhsil, Təlim, Tərbiyə", Azərbaycan Universiteti nəş.Bakı – 2005<br>5..http://www.mcaturk.com/Dikkat_Eksikligii peraktivite_9_kategori.html |
| 13. | Yeniyetməlik dövrünə nəzəri baxış | 1.Yeniyetmələrdə təlim fəaliyyəti və idrak proseslərinin inkişafı.2.Yeniyetməlik dövründə ən çox baş verən həyəcan növləri.3."Yaxşı ki etdim"mərhələsi.4.Yeniyetməlik dövründəki emosional davranışların səbəbləri.5.Yeniyetmə vəvalideyn münasibətlərindəki hallar. | 1.S. Seyidov, M. Həmzəyəv, "Psixologiya", Nurlan nəş. Bakı-2007<br>2.Ə.Qədirov, İ.N.Məmmədov "Yaş psixologiyası", Maarif nəş. Bakı-1986<br>3.S. Seyidov, M. Həmzəyəv, "Psixologiya", Nurlan nəş. Bakı-2007<br>4.Ə.S. Bayramov, Ə.Ə Əlizadə, "Sosial Psixologiya", Qapp-Poliqraf nəş.Bakı – 2003<br>4.Prof. Dr. İbrahim Ethem Özgüven, "Bireyi Tanıma Teknikleri", PDREM nəş. Ankara - 2007 |
| 14. | Yeniyetməlik dövründə yaranan problemlər | 1.Yeniyetməlik dövrünün xüsusiyyətləri<br>2.Yeniyetməlik dövrü problemi<br>3.Uşaq və yeniyetmə terapiyası<br>4.Yeniyetməlik depressiyası | 1.Məlik-Baxış Babayev "Zəka oyunları", Altun Kitab, Bakı – 2005<br>2.S. Seyidov, M. Həmzəyəv, "Psixologiya", Nurlan nəş. Bakı-2007<br>3.http://www.donusumkonagi.net/makale.asp?id=4080&baslik=ergenlikte_bilissel_gelisim&i=ergenlik_sorunlari |
| 15. | Uşaq və yeniyetmələrlə sosial işdə xarici ölkələrin təcrübəsi | 1.Dünyada Məktəb Sosial İşinin vəziyyəti<br>2.Türkiyədə Məktəb Sosial İş<br>3.Avropa ölkələrində sosial iş | 1.acikogretim.istanbul.edu.tr/auzefcontent/20_21_Bahar/dunyada_sosyal_hizmet_uygulamalari/6/index.html<br>2.Amerika birleşik devletlerinde sosyal hizmet uygulamaları Ömer Faruk Cantekin Akademik Hassasiyetler The Academic Elegance Yıl/Year: 2019 Sayı/Issue: 12 Cilt/Volume: 6 Sayfa/Page: 291-308<br>3.Prof.DrEyüp Günay İSBİR.Uzmanlık TEZİ Asuman Aktaş<br>4Çalışma ve Sosyal Güvenlik Bakanlığı Sosyal Dışlanma Bağlamında Sosyal Yardımlar ve karşılaştırmalı politika önerleri Amkara,Nisan 2014 S46-82 |

## FƏNNİN MÜHAZIRƏ MƏTNLƏRİ

Fənn üzrə bütün mühazirə mətnləri və təqdimatlar, habelə zəruri məşğələ materialları elektron formatda Universitetin saytında “Virtual universitet” bölməsində (www.vu.aseu.az ) yerləşdirilir.

## SEMİNAR-MƏŞĞƏLƏLƏR: HAZIRLIQ VƏ QİYMƏTLƏNDİRMƏ

Seminarlar frontal sorgu, yazılı tapşırıqlar, tələbələrin hazırladıqları prezentasiyalar üzrə keçirilir. Seminar dərsində bal yazılacaq. Seminar-məşğələ dərslərində tələbə öz fikirlərini məntiqi ardıcıllıqla ifadə və izah etməyi, habelə arqumentlərlə əsaslandırmağı bacarmalıdır. Buna nail olmaq üçün tələbə:

1) Seminar məşğələsinin hər bir mövzusu üzrə müzakirəyə çıxarılan suallarla diqqətlə tanış olmalı;
2) Müvafiq mühazirə materiallarını diqqətlə öyrənməli;
3) Mövzu üzrə tövsiyə edilən ədəbiyyatı oxumalı və öyrənməli;
4) Seminar məşğələsində müzakirəyə çıxarılan hər bir sual üzrə qısa çıxıs hazırlamalı;
5) Mövzu üzrə verilən praktik tapşırıqlar və məsələləri yerinə yetirməklə praktik bacarıqlara yiyələnməlidir.

UNEC-də təhsilalanların cari və aralıq qiymətləndirilməsi

**QAYDALARI**

***Əyani təhsilalma forması üzrə***

UNEC-də bakalavriat və magistratura səviyyələrində təhsilin bütün illəri üzrə fənlərin attestasiyası hər biri 50 bal formalaşdıran cari və aralıq qiymətləndirmə (toplam 100 bal) əsasında həyata keçirilir. Cari qiymətləndirmə bakalavr və magistrantların bilik və bacarıqlarının semestr ərzində qiymətləndirilməsi, aralıq qiymətləndirmə isə imtahan sessiyası zamanı həyata keçirilən qiymətləndirmədir.

Cari qiymətləndirmə üzrə 50 bal bakalavr və magistrantların semestr ərzində topladıqları ***aktivlik və ara qiymətləndirmə*** ballarının cəmlənməsi ilə formalaşır. Aktivlik balı hər bir fənn üzrə semestr ərzində maksimal 20 bal ola bilər və bu bal fənlərin tədris növünə uyğun olaraq aşağıdakı qaydada formalaşır:

- tədrisi mühazirə və seminar dərsləri ilə həyata keçirilən fənlərdə seminar dərslərində alınan ballar əsasında;
- tədrisi mühazirə, labaratoriya və seminar dərsləri ilə həyata keçirilən fənlərdə laboratoriya işləri yerinə yetirilməsinə görə və seminar dərslərində alınan ballar əsasında;
- tədrisi mühazirə və labaratoriya dərsləri ilə həyata keçirilən fənlərdə laboratoriya işlərinin yerinə yetirilməsi əsasında;
- tədrisi yalnız mühazirə dərsləri ilə həyata keçirilən fənlərdə semestr layihələrinin yerinə yetirilməsi (MBA proqramında dərs zamanı qiymətləndirmə) əsasında;

- qabiliyyət tələb edən fənlərdə fərdi işlərin yerinə yetirilməsi ilə bağlı praktik məşğələ müddətindəki fəaliyyət əsasında.

Hər semestrin əvvəlində bakalavr və magistrantlara təqdim edilən sillabuslarda hər bir fənn üzrə aktivlik balının necə formalaşması qaydası göstərilir.

Seminar dərslərində və praktik məşğələlərdə qiymətləndirmə 10 ballıq şkala əsasında həyata keçirilir və həmin ballar EDUMAN sistemində aşağıdakı nisbətlərdə hesaba alınır:

- 10 bal = 5 bal
- 9 bal = 4,5 bal
- 8 bal = 4 bal
- 7 bal = 3, 5 bal
- 6 bal = 3 bal
- 5 bal = 2,5 bal
- 4 bal = 2 bal
- 3 bal = 1,5 bal
- 2 bal = 1 bal
- 1 bal = 0,5 bal

**Qeyd:** fənnin tədris növü mühazirə, seminar və labaratoriya olduğu zaman seminar dərsi üzrə bal nisbəti EDUMAN sistemində 10 bal = 2,5 bal nisbətinə uyğun hesaba alınır:

Seminar dərslərində (qabiliyyət tələb edən fənlər istisna olmaqla) alınan ballar əsasında formalaşan yekun aktivlik balı aşağıdakı düsturla müəyyən edilir:

B = (((b1+b2+b3+...+bn)/s)*m)/10

Burada,

B - yekun aktivlik balı;
b - seminar dərslərində alınan müxtəlif ballar;
s - semestr ərzində verilən cavabların sayı;
m - aktivlik balına ayrılan maksimal bal;
10 - bir seminar dərsində toplanan maksimal baldır.

Bakalavr və magistrantlar semestr ərzində cəmi 4 dəfə, hər dəfə isə 10 bal aldığı halda maksimal aktivlik balını - 20 balı toplamış olur. Bu halda nəticə sistemdə (((10+10+10+10)/4)*20)/10 = 20 olaraq hesaba alınır.

Maksimal bal toplaya bilməyənlər isə istədiyi halda 5-ci, 6-cı, 7-ci və s. dəfə cavab verməklə aktivlik balı toplaya bilərlər. Bu zaman müəllim ilkin olaraq həmin qrupda ümumilikdə 4 dəfə cavab verməyənlərdən başlamaqla növbəlilik prinsipi əsasında bakalavr və ya magistrantların cavab verməsi üçün imkan yaradır.

Bakalavr və magistrantlar semestr ərzində seminar dərsində 4 dəfədən az cavab verdiyi halda çatışmayan cavab sayı sistem tərəfindən “0” bal olmaqla nəzərə alınır. Məsələn, əgər hər hansı təhsilalan bir fənn üzrə semestr ərzində cəmi 2 dəfə seminar dərsində cavab verib və hər dəfə 10 bal aldığı halda onun yekun aktivlik balı hesablanan zaman həmin təhsilalanın nəticəsi (((10+10+0+0)/4)*20)/10 kimi hesablanır. Seminar dərsində ümümiyyətlə balı olmayan tələbənin aktivlik balı isə “0” bal hesab edilir.

Semestr ərzində təhsilalanların hər bir fənn üzrə topladığı nəticə tam olmadığı halda semestrin sonunda sistem tərəfindən adi riyazi qaydada həmin nəticələr yuvarlaqlaşdırılır (məs. 6,5 bal – 7 bal kimi nəzərə alınır).

***Aktivlik balının*** - labaratoriya işlərinin yerinə yetirilməsi əsasında formalaşması Əlavə 1-də, semestr layihəsinin yerinə yetirilməsi əsasında formalaşması isə bakalavriat səviyyəsi üzrə Əlavə 2-də, magistratura səviyyəsi üzrə isə (MBA proqramı istisna olmaqla) Əlavə 3-də müəyyən edillmiş qaydada təmin edilir.

- Qabiliyyət tələb edən fənlər üzrə bakalavrların aktivlik balı onların praktik məşğələlər zamanı fərdi iş tapşırıqlarının yerinə yetrilməsi ilə bağlı fəaliyyəti əsasında kumulyativ formalaşır. Magistrantların aktivlik balı isə onların yerinə yetridikləri layihənin qiymətləndirilməsi əsasında təmin olunur.

***Ara qiymətləndirmə*** - hər bir fənn üzrə semestr ərzində maksimal 30 bal formalaşdıran və ilk 7 tədris həftəsi ərzində keçilmiş mövzular üzrə (7-ci həftə də daxil olmaqla) aparılan qiymətləndirmədir. Ara qiymətləndirmə mərkəzləşdirilmiş qaydada test və ya yazılı üsulda 8-ci və 9-cu tədris həftələri ərzində keçirilir və təhsilalanlara həmin dövrə qədər mühazirəsi tamamlanmayan mövzu üzrə test və ya yazılı cavablandırılan sual təqdim edilmir. Fənlər üzrə (alt qrup fənləri də daxil olmaqla) ara qiymətləndirmə tədris prosesi dayandırılmadan bakalavriat səviyyəsində əks dərs növbələrində, magistratura səviyyəsində isə cədvəl üzrə dərs olmayan günlərdə, zərurət yarandığı halda isə şənbə günlərində keçirilir. Şənbə günləri ara qiymətləndirmə ilə əlaqədar əmək fəaliyyəti göstərən əməkdaşlara onların istəklərinə uyğun olaraq ara qiymətləndirmənin keçirildiyi təqvim ayı ərzində əlavə istirahət günü - "əvəzgün" verilir.

Ara qiymətləndirmənin cədvəli bir fənn - bir gün prinsipinə əsaslanmaqla ardıcıl günlər üzrə tərtib olunur və 6-cı tədris həftəsinin sonuna qədər UNEC-in saytında elan edilir.

Test üsulunda keçirilən ara qiymətləndirmə zamanı hər bir fənn üzrə təhsilalanlara 30 test təqdim olunur. Testlərin hər biri 1 balla qiymətləndirilir və səhv cavablandırılmış testlər düz cavablara təsir etmir. Yazılı üsulunda keçirilən ara qiymətləndirmə zamanı isə hər bir fənn üzrə təhsilalanlara 3 sual təqdim olunur. Bu qiymətləndirmə zamanı hər bir təhsilalana fənlərin xüsusiyyəti nəzərə alınmaqla müxtəlif vaxt müddətləri verilir. Bu vaxt müddətləri UNEC Elmi Şurasının qərarı ilə müəyyən edilir.

Ara qiymətləndirmə üzrə üzrlü imtahanları (habelə olduğu halda texniki problem yaranmış imtahanlar) 11-ci tədris həftəsi ərzində eyni qaydada ardıcıl günlərdə keçirilir.

Qabiliyyət tələb edən fənlər üzrə ara qiymətləndirmə semestr ərzində yerinə yetirilən və hər biri 5 bal üzərindən qiymətləndirilən 6 fərdi işin (hər ay ərzində 2 iş olmaqla) qiymətləndirilməsi əsasında təmin olunur.

Fənlər üzrə ara qiymətləndirmə onların tədrisi formasından (əyani, hibrid və ya online) asılı olmayaraq universitetin imtahan zallarında və ya bu məqsədlə müəyyən edilən auditoriyalarda test, qarışıq və ya yazılı üsullardan birinin istifadə edilməsi ilə keçirilir. Bu qiymətləndirmə üzrə nəticələr kağız formasında arxivləşdirilmir.

Bakalavriat və magistratura səviyyələri üzrə təhsilalanlara 75%-lik davamiyyət limiti tətbiq edilir. Fənn üzrə bu həddi aşanlar həmin fənn üzrə aralıq qiymətləndirməyə (sessiya imtahanına) buraxılmır. Davamiyyət limitini aşmayan əyani təhsilalanlar üçün həmin fənn üzrə davamiyyətə görə bal verilmir. Qiyabi təhsilalma forması üzrə isə davamiyyət səviyyəsindən asılı olaraq maksimum 10 bal verilir.

***Aralıq qiymətləndirmə*** - test, yazılı, qarışıq, şifahi və ya qabiliyyət imtahanı üsullarından biri

ilə hər semestrin sonunda keçirilən sessiya imtahanıdır. Bu imtahanlarda təhsilalanların qiymətləndirilməsi 50 bal üzərindən hər bir imtahan üsulu üzrə müəyyən edilən qaydada həyata keçirilir.

Aralıq qiymətləndirmə semestr ərzində keçilmiş bütün mövzular üzrə tərtib edilən testlər, yazılı və ya şifahi imtahan sualları (qabiliyyət tələb edən fənlər istisna olmaqla) əsasında həyata keçirilir. Bu qiymətləndirmənin cədvəli imtahanlar arasında minimum 2 gün fasilə verilməklə tərtib olunur. İmtahan cədvəli 13-cü tədris həftəsində UNEC-in saytında elan edilir.

Test üsulunda keçirilən aralıq qiymətləndirmə zamanı hər bir fənn üzrə təhsilalanlara 50 test təqdim olunur. Testlərin hər biri 1 balla qiymətləndirilir və səhv cavablandırılmış testlər düz cavablara təsir etmir. Yazılı üsulunda (qabiliyyət tələb edən fənlər istisna olmaqla) keçirilən aralıq qiymətləndirmə zamanı isə hər bir fənn üzrə təhsilalanlara 5 sual təqdim olunur. Bu qiymətləndirmə zamanı hər bir təhsilalana fənlərin xüsusiyyəti nəzərə alınmaqla müxtəlif vaxt müddətləri verilir. Bu vaxt müddətləri UNEC Elmi Şurasının qərarı ilə müəyyən edilir.

Aralıq qiymətləndirmə üzrə üzrlü imtahanları (texniki problem yaranmış imtahanlar da daxil olmaqla) sessiya bitdikdən sonra eyni qaydada ardıcıl günlər ərzində keçirilir.

Fənlərin tədrisi formasından (əyani, hibrid və ya online) asılı olmayaraq bütün imtahanlar universitetin imtahan zallarında və ya bu məqsədlə müəyyən edilən auditoriyalarda test, qarışıq, yazılı, şifahi və ya qabiliyyət imtahanı üsullarından birinin istifadə edilməsi ilə keçirilir. Bu qiymətləndirmə üzrə nəticələr kağız formasında arxivləşdirilir.

Tədris növlərinə müvafiq olaraq fənlər üzrə ***cari və aralıq qiymətləndirmə*** aşağıdakı qaydada və bal nisbətlərində həyata keçirilir:

- Tədrisi mühazirə və seminar dərslərindən ibarət olmaqla həyata keçirilən fənlərdə cari qiymətləndirmə üzrə 50 balın 20 balı aktivlik balı hesabına (10 bal = 5 bal nisbətində seminar dərsində toplanan bal), 30 balı isə ara qiymətləndirmə əsasında təmin edilir. Aralıq qiymətləndirmə üzrə 50 bal - test və ya yazılı üsulda keçirilən sessiya imtahanı əsasında formalaşır;
- Tədrisi mühazirə, seminar və labaratoriya dərslərindən ibarət olmaqla həyata keçirilən fənlərdə cari qiymətləndirmə üzrə 50 balın 10 balı aktivlik balı hesabına (10 bal = 2,5 bal nisbətində seminar dərsində toplanan bal), 10 balı Əlavə 1-də müəyyən edilmiş qaydada laboratoriya işlərinin yerinə yetirilməsi hesabına, 30 balı isə ara qiymətləndirmə əsasında təmin edilir. Aralıq qiymətləndirmə üzrə 50 bal - test və ya yazılı üsulda keçirilən sessiya imtahanı əsasında formalaşdırılır;
- Tədrisi mühazirə və labaratoriya dərslərindən ibarət olmaqla həyata keçirilən fənlərdə cari qiymətləndirmə üzrə 50 balın 20 balı Əlavə 1-də müəyyən edilmiş qaydada laboratoriya işlərinin yerinə yetirilməsi hesabına, 30 balı isə ara qiymətləndirmə əsasında təmin edilir. Aralıq qiymətləndirmə üzrə 50 bal - test və ya yazılı üsulda keçirilən sessiya imtahanı əsasında formalaşdırılır.

- Türk dünyası iqtisad fakültəsində cari qiymətləndirmə üzrə 50 balın 20 balı Əlavə 2-də müəyyən edilən qaydada yerinə yetirilən 1 layihənin qiymətləndirilməsi, 30 balı isə test və ya yazılı üsulda keçirilən ara qiymətləndirmə əsasında təmin edilir. Aralıq qiymətləndirmə üzrə 50 bal - test və ya yazılı üsulda keçirilən sessiya imtahanı əsasında formalaşdırılır;

- Beynəlxalq magistratura və doktorantura mərkəzində cari qiymətləndirmə üzrə 50 balın 20 balı Əlavə 3-də müəyyən edilən qaydada yerinə yetirilən 1 layihənin qiymətləndirilməsi, 30 balı isə yazılı üsulda keçirilən ara qiymətləndirmə əsasında təmin edilir. Aralıq qiymətləndirmə üzrə 50 bal - yazılı üsulda keçirilən sessiya imtahanı əsasında formalaşdırılır;

- Qabiliyyət tələb edən fənlər üzrə cari qiymətləndirmənin 50 balının 20 balı tələbələrin aktivlik balı (praktik məşğələ zamanı tapşırıqların icrası əsasında müəyyən edilir) hesabına formalaşdırılır. Qalan 30 bal isə semestr ərzində (hər ay 2 iş olmaqla) Əlavə 4-də qeyd olunan qaydada yerinə yetirilən və hər biri 5 balla qiymətləndirilən 6 fərdi işin qiymətləndirilməsi əsasında təmin edilir. Əlavə bal almaq üçün 7-ci fərdi işin təqdim edilməsinə icazə verilmir. Aralıq qiymətləndirmə üzrə 50 bal isə 180 dəqiqə müddətində keçirilən sessiya imtahanı ərzində çəkilən 1 rəsmin qiymətləndirilməsi əsasında təmin edilir. Bu imtahan nəticələri sistemə aidiyyəti kafedra tərəfindən daxil edilir.

- UNEC Biznes məktəbində cari qiymətləndirmə üzrə 50 balın 20 balı Əlavə 5-də müəyyən edilən qaydada yerinə yetirilən 1 layihənin qiymətləndirilməsi, 15 balı aktivlik balı (hər dərsdə maksimal 1 bal olmaq şərtilə), 15 balı isə yazılı üsulda keçirilən ara qiymətləndirmə əsasında təmin edilir. Aralıq qiymətləndirmə üzrə 50 bal - yazılı üsulda keçirilən sessiya imtahanı əsasında formalaşdırılır.

**Qiyabi təhsilalma forması üzrə tələbələrin cari və aralıq qiymətləndirilməsi qaydası**

Qiyabi təhsilalma formasında təhsilin bütün illərində tələbələrin fənlər üzrə attestasiyası cari və aralıq qiymətləndirmə əsasında həyata keçirilir. Cari qiymətləndirmə üzrə toplam - 30 bal, aralıq qiymətləndirmə üzrə isə 70 bal aşağıdakı qaydada formalaşır:

Cari qiymətləndirmə üzrə - 30 balın 10 balı tələbələrin dərsə davamiyyət səviyyəsinə görə, 20 bal isə mühazirə-məşğələ sessiyası müddətində tədris olunan fənlər üzrə eyni gündə keçirilən ara qiymətləndirmə əsasında formalaşdırılır. Ara qiymətləndirmə zamanı tələbələrə hər fənn üzrə 10 sual verilir və onların hər biri 2 bal nisbətində hesablanır. Səhv cavablandırılmış testlər düz cavablara təsir etmir.

Ara qiymətləndirmə üçün tələbələrə hər bir fənnə 10 dəqiqə nisbətində (UNEC Elmi

Şurasının qərarı ilə fərqli vaxt müddətləri müəyyən edilən fənlər istisna olamqla) ümumi vaxt verilir. Verilən ümumi vaxtın (məs. 3 fənnə görə 30 dəqiqənin) fənlər üzrə müxtəlif nisbətlərdə (məs. 1-ci fənnə 12 dəqiqə, 2-ci fənnə 8 dəqiqə, 3-cü fənnə 10 dəqiqə) istifadə olunması hər bir tələbənin özü tərəfindən müəyyən olunur. Bu qiymətləndirmə üzrə nəticələr kağız formasında arxivləşdirilmir.

Üzrlü ara qiymətləndirmə eyni qaydada aralıq qiymətləndirmə başlayana qədər keçirilir.

Aralıq qiymətləndirmə üzrə 70 bal - yalnız test üsulunda keçirilən sessiya imtahanı əsasında formalaşdırılır. Bu imtahanlarda tələbələrə 50 test tapşırığı təqdim olunur və onların hər biri 1,4 bal təmin edir. Səhv cavablandırılmış testlər düz cavablara təsir etmir. Qiymətləndirmə zamanı hər bir tələbəyə UNEC Elmi Şurasının qərarı ilə müəyyən edilən vaxt müddəti verilir.

Üzrlü aralıq qiymətləndirmə imtahanları sessiya bitdikdən sonra növbəti semestr başlayana qədər (akademik təqvimlə müəyyən edilir) keçirilir.

**Sərbəst işlər (Qrup işi): nəzərdə tutulmayıb**

**TƏRTİB ETDI:**  ***baş müəllim Sultanova Nailə İdris qızı***

## *MƏNBƏLƏR:*

Silabusun məzmunu və strukturu ilə bağlı təklif olunan bu sənədın hazırlanması zamanı aşağıdakı mənbələrdən istifadə olunmuşdur:


1. https://dergipark.org.tr/en/download/article-file/1335762
2. https://e-qanun.az/framework/3292